# İstiqlal əqidəli, milliyyət sevdalı mühərrir - Şəfi bəy Rüstəmbəyli

**27 aprel 1920-ci il, Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin son iclası idi... Ürəyi vətən eşqi, istiqlal atəşi ilə alovlanan millət fədailəri min bir cəfa ilə öz əlləri ilə qurub-yaratdıqları cümhuriyyətlərinin son gününü yaşayır, onun süqutuna, sözün əsl mənasında gənc yaşında can verməsinə dəhşət, ürək ağrısı, göz yaşları içərisində çarəsizcə şahidlik edirdilər...**

Azərbaycanın müstəqillik tarixindəki ən qaranlıq günlərdən birində yaşamağın gətirdiyi ağrı-acı ilə qıvranan millətçi ziyalılarımızın, siyasi xadimlərimizin arasında Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin deputatı, "Azərbaycan" qəzetinin rus dilində nəşrinin baş redaktoru Şəfi bəy Rüstəmbəyli də var idi...

O Şəfi bəy Rüstəmbəyli ki, yaşadığı cəmi 67 illik ömrünü başdan-başa millətinin maariflənməsi, azadlığı, istiqlaliyyəti, müstəqilliyi uğrunda fəda etmişdi. Gənc yaşlarından atıldığı siyasət meydanında od-alovlu çıxışları, taleyüklü qərarları, əməlləri, redaktoru olduğu "Azərbaycan" qəzetində milli təəssübkeşliyə köklənmiş yazıları ilə ara sözlə, ara qələmlə daim xalqının işıqlı gələcəyi üçün çarpışmışdı...

İndi ötənləri xatırlayıb Şəfi bəy Rüstəmbəylinin keçdiyi ömür yoluna nəzər salanda görürük ki, bu vətənpərvər şəxsiyyət bir azərbaycanlı olaraq Tanrının həm xoşbəxt, həm də acı taleli bəndələrindən olub...

Şəfi bəyin alın yazısına ömrünün bahar çağında - 25 yaşındaykən Azərbaycan Xalq Cümhuriyyətini quran böyük kişilərin sırasında onlarla çiyin-çiyinə olmaq kimi müstəsna yazı yazılıb.

Cümhuriyyətin yaranmasında fəal iştirak edən Şəfi bəy İstiqlal Bəyannaməsini - Azərbaycanın müstəqilliyi barədə sənədi imzalayan Milli Şuranın 27 nəfər üzvündən biri olub.

Ancaq cəmi iki ildən sonra - 27 aprel 1920-ci ildə Şəfi bəy Rüstəmbəyli də digər Cümhuriyyət qurucuları kimi taleyin amansız hökmünə çar-naçar boyun əyməli olub.

Buna görə idi ki, parlamentin son iclasında Məhəmməd Əmin Rəsulzadənin "Bizim partiya təslim olmağın əleyhinədir. Lakin vətəndaş qarşıdurmasına getməmək üçün və bir sıra başqa şərtlərə görə hakimiyyəti verməyə məcburuq" deyə ölüm hökmü kimi səslənən bu sözlərindən sonra zala çökən dəhşətli sükutu parlamentin üzvü, "Azərbaycan" qəzetinin redaktoru Şəfi bəy Rüstəmbəylinin ürəkparçalayan hönkürtüləri pozmuşdu...

Cümhuriyyətin gənc lideri ağlayırdı, vətənin ağrı-acılı taleyinə, millətinin düçar olduğu müsibətə...

Və o zaman Şəfi bəy bilmirdi ki, ürəyində-ki dağ boyda vətən dərdini hələ bundan sonra düz 40 il qürbətdə daşımalı olacaq...

Qürbət ellərdə millətinin, ölkəsinin istiqlalı uğrunda mücadilə aparacaq...

Amma o xoşbəxt günləri görmək bir daha qisməti olmayacaq, vətən həsrəti ilə bu dünyadan köçəcək...

Bu nurlu insanın qürbətdəki məzarı ürəyi torpaq, millət eşqi ilə döyünən bütün azərbaycanlılar üçün vətənin kiçik bir parçasına çevriləcək...

## Cümhuriyyətə uzanan keşməkeşli yol

1893-cü ildə Ərəş qəzasının Məmmədli kəndində dünyaya gələn Şəfi bəy Rüstəmbəyli orta təhsilini Gəncə Klassik Gimnaziyasında alıb. 1911-ci ildə Kiyev Universitetinin Hüquq fakültəsinə qəbul olunub və həmin ilin sonunda universitetdə yaradılmış "Azərbaycan Həmyerlilər Cəmiyyəti"nin ("Zemlyaçestvo") rəhbərlərindən biri seçilib. Ümumrusiya müsəlman tələbələrinin qurultayının nizamnaməsinin hazırlanmasında fəal iştirak edib.

Tədqiqatçılar yazır ki, qurultaya hazırlıq zamanı cəmiyyətin üzvü, Kiyev Ali Qadın kurslarının dinləyicisi Sona xanım Axundovanın mənzilində 17 aprel 1913-cü ildə komissiyanın birinci iclası olur. Həmin vaxt polis, Şəfi bəy də daxil olmaqla, cəmiyyətin 17 üzvünü həbs edir. Bir aydan sonra həbs edilənlərin dilindən iltizam alınır və onlar azad olunurlar. Kiyev həyatı Şəfi bəy Rüstəmbəylinin ictimai-siyasi dünyagörüşünün formalaşmasında əhəmiyyətli olur.

Şəfi bəy ali təhsil aldığı ilk dövrdə Müsəlman Demokratik Müsavat Partiyasının Kiyev şöbəsində fəaliyyət göstərir. Bu fəaliyyəti Şəfi bəyin siyasi baxışlarının formalaşmasında, onun gələcəkdə həm siyasi, həm də ictimai xadim kimi yetişməsində böyük rol oynayır. 1916-cı ildə təhsilini bitirərək vətənə dönən Şəfi bəy bir müddət Gəncə Dairə Məhkəməsində vəkil kimi fəaliyyət göstərir. O, 1917-ci ilin aprelində Bakıda çağırılmış Azərbaycan müsəlmanlarının qurultayında Azərbaycana muxtariyyət verilməsini qətiyyətlə tələb edənlərdən biri olur. Şəfi bəy həmin ilin mayında Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayında da iştirak edir. Həmçinin 1917-ci ilin iyun ayında yaradılan Türk Ədəmi-Mərkəziyyət Müsavat Partiyasının Mərkəzi Komitəsinin 8 üzvündən biri də Şəfi bəy olur.



O, 1917-ci il noyabrın 15-də təsis edilmiş Zaqafqaziya Komissarlığının və Seyminin müsəlman fraksiyasının fəallarından idi. Həmin dövrdə Şəfi bəy Azərbaycan Milli Şurasının Tiflis və Gəncə bölmələrində çalışır, dövlət qurumlarının yaradılmasında böyük əmək sərf edirdi.

Nəhayət, azadlıq mücahidlərinin müstəmləkədən qurtulmaq uğrunda apardıqları gərgin mübarizə uğurlu nəticəsini verir və 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti elan olunur. Cümhuriyyətin yaranmasında fəal iştirak edən Şəfi bəy İstiqlal Bəyannaməsini imzalayan Milli Şuranın üzvlərindən biri olur.

## Milli mətbuatın inkişafına töhfələr

15 sentyabr 1918-ci ildə Xalq Cümhuriyyətinin rəsmi orqanı "Azərbaycan" qəzeti Azərbaycan və rus dillərində öz nəşrinə başlayır.

Şəfi bəy Rüstəmbəyli "Azərbaycan" qəzetinin rus dilində nəşrinin redaktoru təyin edilir.

Şəfi bəy Rüstəmbəylinin mətbuat sahəsindəki ən böyük xidmətlərindən biri 1919-cu ildə milli mətbuat haqqında ilk qanunu işləyərək parlamentdə qəbul edilməsinə nail olmasıdır. Araşdırmaçıların yazdığına görə, Cümhuriyyət dövrünün "Azərbaycan"ının rus dilində nəşri ilə maraqlanarkən buradakı yazıların əksəriyyətinin Şəfi bəyin özü tərəfindən qələmə alındığı məlum olur.

Bu yazıların hər biri mühərririn şəxsi üslubu, qələmə aldığı mövzularda dərin yanaşma ortaya qoyması ilə diqqət çəkir. Peşəkar yazar məqalələrində ölkə əhəmiyyətli məsələlərə, ictimai problemlərə toxunub, onların vacibliyini qeyd edib. Həmçinin görkəmli jurnalistin yazılarında milli kimliyin dərki, milli təəssübkeşlik, cəmiyyətdə savadlılığın artırılması kimi mühüm məsələlər ön plana çıxır.

Şəfi bəyin yazılarında diqqətçəkən mühüm məqamlardan birinin isə toxunduğu mövzuların, problemlərin bu günümüzlə səsləşməsi, hələ də aktuallığını itirməməsidir.

"Azərbaycan" qəzetində o dövrdə soydaşlarımızın erməni şovinistləri tərəfindən Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalmaları geniş şəkildə işıqlandırılıb. Həmçinin erməni-daşnak quldurlarının Zəngəzurda, Naxçıvanda, Qarabağda və digər bölgələrimizdə azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlər qəzetdəki məqalələrdə öz əksini tapıb. Məsələn, Şəfi bəy Rüstəmbəyli "Düşünmək vaxtıdır" sərlövhəli məqaləsində yazıb: "Bizim üçün vacibdir ki, erməni xalqı, nəhayət, "Daşnaksütyun" partiyasının siyasi avantürasının məhvə məhkumluğunu başa düşsün, nə qədər ki, gec deyil ondan üz döndərsin, öz qonşuları ilə səmimi və mehriban yaşamaq yoluna qədəm qoysun. Başqa yol onlar üçün daim fəlakətli olacaqdır".

Yaxud Şəfi bəyin tanınmış ictimai xadim və publisist Əhməd bəy Ağayevlə siyasi hadisələr haqqında müsahibəsinin "Qafqazın gələcəyi" bölməsində jurnalistin həmsöhbəti deyir ki, Qafqaz xalqlarının hər birinin öz varlığını digərlərindən təcrid olunmuş halda qoruyub saxlaya biləcəkləri barədə fikir irəli sürənlər çox səhv edirlər. Onlar yalnız birlikdə böyük qüvvə yarada bilərlər. Daha sonra müsahibədə Azərbaycan və Rusiya münasibətlərinə toxunulur. Qeyd edilir ki, Azərbaycanda rus xalqına, o cümlədən burada yaşayan ruslara qarşı heç bir düşmənçilik hissi yoxdur.

Müasir "Azərbaycan" qəzetində də respublikamızda var olan multikultural və tolerant mühit hər zaman ön plana çəkilir, nəinki rusların, eləcə də digər xalqların nümayəndələrinin ölkəmizdə harmoniya içərisində yaşamaları vurğulanır.

4 noyabr 1918-ci ildə qəzetdə "İrəvan quberniyasında müsəlmanların vəziyyəti" sərlövhəli yazıda özlərini Azərbaycanın bir hissəsi hesab edən İrəvan müsəlmanlarının nümayəndə heyətinin Bakıya gəlişi barədə məlumat verilir. Belə ki, Azərbaycan hökumətindən onların təhlükəsizliyi üçün tədbirlər görülməsini, Ermənistan hökuməti ilə danışıqlar apararaq İrəvan müsəlmanlarının öz yerlərinə qaytarılmasını xahiş edirlər.

Hazırda da indiki Ermənistan ərazisindən qovulan yüz minlərlə qaçqın soydaşımızın tarixi yurdlarına qayıdışı dövlətimizin qarşısında duran milli hədəfdir və bu məsələ müasir Azərbaycanın salnaməsi olan "Azərbaycan" qəzetində geniş işıqlandırılır.

Şəfi bəy Rüstəmbəylinin rus dilində qələmə aldığı istənilən məqaləsində vətən, millət sevdası, istiqlal qayəsi ön yerdədir.

## Çoxşaxəli fəaliyyət

Şəfi bəy Rüstəmbəylinin siyasi karyerası da kifayət qədər zəngin olub. O, 7 dekabr 1918-ci ildə Azərbaycan Parlamentinin üzvü, daha sonra parlamentin Mandat komissiyasının sədri kimi Müəssislər Məclisinin çağırılması üzrə Mərkəzi Komissiyanın tərkibinə daxil olub. Türk Ədəmi-Mərkəziyyət Müsavat Partiyasının birinci (1917, 26-31 oktyabr) və ikinci (1919, dekabr) qurultaylarında Mərkəzi Komissiyanın üzvü, ikinci qurultayda həm də partiya sədrinin müavini seçilib.

Şəfi bəy daha sonra AXC-nin Daxili İşlər Nazirliyinin dəftərxana müdiri, 1920-ci il martın əvvəllərindən isə nazir müavini vəzifəsini də icra edir. Vətənpərvər şəxsiyyət tutduğu bütün vəzifələrdə vicdan və şərəflə ölkəsinin, xalqının mənafelərinə xidmət edib.

Cümhuriyyətin çöküşü ilə istiqlal arzuları yarımçıq qalan Şəfi bəy Tiflisə köçmək məcburiyyətində qalır. Digər Cümhuriyyət liderləri kimi, onun da Azərbaycanda qalan doğmaları təqiblərlə üzləşir. Şəfi bəyin atası Mustafa bəy və qardaşı Hacı bəy amansızcasına qətlə yetirilirlər.

Onun rəhbərliyi ilə Tiflisdə "Azərbaycanı xilasetmə komitəsi" yaranır. Lakin sovet hakimiyyətinin Gürcüstanı işğal etməsi ilə Şəfi bəyin buradakı fəaliyyəti də dayanır. Beləliklə, Türkiyənin İstanbul şəhərinə köçən siyasi xadimin uzun və məşəqqətli mühacir həyatı başlayır.

O, burada da imkanının yetdiyi qədər Azərbaycanın istiqlalı uğrunda mübarizəsini davam etdirir.

Ş.Rüstəmbəylinin iştirakı ilə İstanbulda 1923-1927-ci illərdə "Yeni Qafqaziyyə", 1928-1931-ci illərdə "Azəri türkü", 1928-1930-cu illərdə "Odlu yurd" və 1932-ci ildə "Azərbaycan yurd bilgisi" jurnalları nəşr olunur.

Keşməkeşli həyat yaşayan görkəmli dövlət xadimi, peşəkar jurnalist Şəfi bəy Rüstəmbəyli 1960-cı ildə Türkiyədə dünyasını dəyişir və İstanbulda yerləşən Feriköy məzarlığında dəfn edilir.

## Gerçəkləşən 150 illik milli ideya

Azərbaycan xalqının "Konstitusiya və Suverenlik İli"ni böyük qürurla qeyd etdiyi 2025-ci il həm də Azərbaycan milli mətbuatının 150 illik yubileyi ilə üst-üstə düşür. Milli mətbuatımızda külüng vurmuş jurnalistlərin, publisistlərin də elə ən böyük amalı milli məfkurəmizin rişələnməsi, Azərbaycanı azad, müstəqil, suveren görmək olub. Dövrün bütün çətinliklərinə rəğmən "Əkinçi"dən başlayan bu milli ideya qəzet və jurnallarımızda qırmızı xətt kimi keçib. 15 sentyabr 1918-ci ildə - Bakının düşmən işğalından azad edildiyi tarixi gündə həyata vəsiqə qazanan "Azərbaycan" qəzeti cəmi iki il sürən fəaliyyəti dövründə vətənin istiqlalı, cümhuriyyətin qarşılaşdığı problemlər və onların həlli ilə bağlı peşəkar jurnalist və publisistlərimizin dərin siyasi təhlillərinin və şərhlərinin tribunası rolunu oynayıb. Parlamentin iclaslarını geniş işıqlandıran qəzetdə reportajlar, tanınmış ictimai-siyasi xadimlərin müsahibələri, ümumiyyətlə, jurnalistikanın bütün janrlarında əhatəli və peşəkar məqalələr dərc edilib. Eyni zamanda Şəfi bəy Rüstəmbəylinin redaktorluğu ilə dərc edilən "Azərbaycan" qəzetinin rusdilli nəşrindəki yazılar o dövrün ictimai-siyasi mənzərəsini olduğu kimi gözlər önünə sərən əvəzsiz məxəzdir.

Qələmə aldığı bütün yazılarında ölkənin taleyüklü məsələlərinə bir hüquqşünas, siyasətçi kimi sərrast, dolğun şərhlər verən cümhuriyyət qurucularından olan görkəmli dövlət xadimi, peşəkar mühərrir Şəfi bəy Rüstəmbəyli çox təəssüf ki, böyük üzüntü və kədərlə azadlığı əlindən alınan vətənin taleyinə - Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna şahidlik edir.

Ancaq o məşum gündən 105 il ötdükdən sonra mətbuatımızın 150 illik yubileyinin bütöv, müstəqil, suveren Azərbaycanda qeyd edilməsi həm də Azərbaycan milli mətbuatının tarixi missiyasının məntiqi zirvəsinə yetməsinin özündə təcəssüm etdirir. Elə buna görə də əminik ki, Şəfi bəy Rüstəmbəylinin timsalında bu günləri görməyin arzusu, həsrəti ilə kimisi vətəndə, kimisi qürbətdə dünyadan köçən böyük fikir adamlarımızın, siyasətçilərimizin, mütəfəkkirlərimizin, jurnalistlərimizin, publisistlərimizin də ruhları şaddır.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.-2025.- 22 iyul (№ 149).- S.13.

e-news.az